**Vüqar Sərdar oğlu ABDULLAYEV**
*Qərbi Kaspi Universiteti,*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru*
E-mail: raguv@mail.ru

# AZƏRBAYCANIN İLK DİZAYNERLƏRİ

**Xülasə:** Məqalə Azərbaycanda fəaliyət göstərən iki yəhudi əsilli alman rəssamlarının Azərbaycan incəsənətinə verdikləri töhvələrdən danışır. Müəllif məqalədə bu iki rəssamı Azərbaycanda dizaynın əsaslarını qoyan incəsənət xadimlləri kimi təqdim edir. Hər iki rəssam, həm kitab və jurnal illüstrasiyası, həm səhnə tərtibatında və bir çox digər sahələrdə fəaliyyət göstərərək Azərbaycanda dizayn sənətinin sütünlarını qoymuşlar. Təəssüflər olsunki, bu rəssamlar nə qədər öz yaradıcılıqlarında uğurlu olsalar belə onların şəxsi həyatları uğursuz olmuşdur. Oskar Şmerlinq çətinliklə yaşamış və son olaraq oğlu represiya qurbanı olmuşdur. İosif Rotter isə müharibə illərində Sibirə sürgün edilmiş və orada dünyasını dəy işmişdir.

**Açar sözləri:** Rəssam Oskar Şmerling, İosif Rotter

**UOT:** 74.01/.09

**DOI:** doi.org/10.54414/fbyg3169

## Giriş

Adları karikatura janrının rəssamlar kimi qəbul edilsə belə, hesab edirik ki, hələ Əzim Əzimzadənin Molla Nəsrəddin jurnalında fəaliyətinə qədər iki yəhudi əsilli Almaniyada təhsil almış rəssam Azərbaycanda ilk olaraq dizaynın əsaslarını qoymuşlar. Beləki, bu iki rəssam həm teatr səhnəsində, həm də mətbuatda birbaşa olaraq dizayn fəalliyəti ilə məşğul olmuşlar.

Onlardan birincisi haqqında elmi-əsərlərdə kifayət qədər məlumat olsa da, ikincisi haqqında demək olar ki, məlumat tapmaq çətindir.

Birinci rəssam Oskar Şmerlinqdir. Oskar Şmerlinq Almaniyanın Münxen şəhərində Münxen Rəssamlıq Akademiyasında təhsil almışdır. Sonralar uzun müddət Gürcüstanda çalışmış və bir müddət də Azərbaycanda Molla Nəsrəddin jurnalının həm tərtibatında həm də bu jurnalı müxtəlif movzulu karikatura rəsmləri ilə zənginəşdirmişdir.

Digər rəssan İosif Rotter də həmçinin, adı çəkilən Münxen Rəssamlıq Akademiyada təhsil almış və bir müddət Molla Nəsrəddin jurnalında rəsmləri ilə göz oxşamışdır.

Hər iki rəssamın müxtəlif işləmə üslubları vardır və biz onlar haqqında qısaca danışmaq istərdik. Əsl məqsədimiz isə bu rəssamların dizayn sahəsində Azərbaycan mədəniyyətinə verdikləri töhvləri araşdırmaqdır.

Əvvəlcə ondan başlayaq ki, öz klassik realistik üslubuna və işləmə texnikasına görə İosif Rotter dəfələrlə Qafqazda o dövrdə işləyib-çalışan rəssamlardan qrafik üslübuna və əsas etibarı ilə texnikasına görə çox fərqli idi. Bu da çox guman ki, onun Münxen məktəbinin tələbəsi olduğundan irəli gəlirdi.

Hazırda Münxen Rəssamlıq Akademiyasında tamam başqa bir tərzdə dərslər küçirilir və klassik üslub bir qədər öz rolunu itirərək arxa plana çəkilmişdir. Tələbələr öz üslublarının axtarışında bəzən

hətta çox uzaqlara gedərək əsərlərini tamamilə tamaşaçı tərəfindən tanılmaz vəziyyətə gətirib çıxarırlar.

Hesab edirik ki, belə bir təhsil üslubunun mənfi cəhətləri də az deyildir. Hər iki rəssam bu Akademiyanın məzunu olduğuna görə Akademiyaya yazılı şəkildə müraciət etdik və arxivdən rəssamların təhsili haqqında məlumat toplamağa çalışdıq.

Münxen Rəssamlıq Akademiyasının online Arxivinə nəzər salaq:

***"Martikelbücher"*** adı altında arxivdə təəssüflər olsun ki, İosif Rotter və Oskar Şmerlinq adı altında tələbə tapa bilmədik. Arxib 19-cu əsrin əvvəllərindən burada təhsil alan bütün tələbələrin adını, soyadını, təhsil aldığı müddəti, dərs aldığı sinfin adını və hətta müəllimlərini belə qeydiyyatda saxlayır.

Adı çəkilən iki rəssamın isminin tapılmaması ilə əlaqədar Akademiyaya məktubla müraciət etdik. Bizə cavab olaraq iki versiya təqdim olundu.

***Birinci versiya*** – o zaman üçün yəhud əsilli tələbərin çoxu adlarını və soyadlarını Alman cəmiyyətində yaşadıqlarından və eləcə də Çar Rusiyasında belə bilərəkdən dəyişidilər ki, onların yəhudi əsilli olduqları məlum olmasın.

***İkinci versiya*** - Arixiv sənədlərin bir qismi ikinci dünya müharibəsi dövründə yandırılmışdır. Ola bilsin ki, yəhud əsilli olduqlarına görə onlara aid rəsm əsərləri və məlumatlar alman faşistləri tərəfindən məhv edilmişdir.

Biz rəsmi olaraq Alman Rəssamlıq akademiyasından bu iki versiyanı əldə etdik.

Təəssüflər olsunki, bu iki rəssamın Almaniyadakı fəalliyəti haqqında heç bir dəlil əldə edə bilmədik.

Lakin onların və xüsusi ilə də Oskar Şmerlinqin çox zəngin fəaliyyəti şübhəsiz Azərbaycan dizaynına da böyük təsir göstərmişdir. Oskar Şmerlinq Cəlil Məmmədquluzadənin dəvətilə təmannasız olaraq "Molla Nəsrəddin" jurnalında rəssam kimi çalışmışdır. Lakin o, təkcə karikutura rəsmlərini dərc etdirməmiş, jurnalın bütün dizaynı ilə də məşğul olmuşdur.

Şmerlinqin çəkdiyi Molla Nəsrəddin portreti uzun illər müxtəlif süjetlərlə birlikdə ayrı-ayrı vəziyyətlərdə "Molla Nəsrəddin" jurnalında çap olunub. Şmerlinqin yozumunda Molla Nəsrəddinin müdrikliyi və uzaqgörənliyi, yüksək vətəndaşlıq keyfiyyətləri böyük məharətlə canlandırılıb. Onun rəsmlərində Molla Nəsrəddinin daxili aləmi ilə yanaşı zahiri əlamətləri də milli kaloritə, Şərq adətlərinə uyğun şəkildə təsvir edilib. Bir sözlə, Azərbaycan xalq satirasının baş qəhrəmanı



Mənbə: Matrikeldatenbank - Akademie der Bildenden Künste München (adbk.de)

Molla Nəsrəddinin portreti alman rəssamı Oskar Şmerlinqin kəşfidir".[1]

Onu da qeyd etmək lazımdır ki, Oskar Şmerlinq bir müddət Xankəndi və Şuşa şəhərlərində çalışmış və orada teatr rəssamı kimi də fəaliyyət göstərmişdir.





Azərbaycanda satirik qrafika sənətinin başlanğıcı XVI – XVII əsrlərə təsadüf etməyinə baxmayaraq, bu sənətin geniş yayılmış karikatura janrı XX əsrin əvvəllərində yaranmışdır [3]. Bu yaranışda isə müsəlman şərqində məşhur olan "Molla Nəsrəddin" jurnalının rolu danılmazdır. 1906 – cı ildən etibarən "Molla Nəsrəddin" jurnalının redaktoru olan Cəlil Məmmədquluzadə öz ətrafına dövrünün məşhur yazıçılarını toplamaqla bərabər (M.Ə.Sabir, Ə.Haqverdiyev, M.S. Ordubadı, Ə. Nəzmi, Ə. Qəmküsar), bacarıqlı karikaturaçı rəssamları da dəvət etmişdir. "Molla Nəsrəddin" jurnalında müxtəlif illərdə çalışan azərbaycanlı və əcnəbi karikaturaçı rəssamlar gözəl sənət əsərləri yaratmışlar. Jurnalın ilk əcnəbi rəssamı O.Şmerlinq olmuş, sonralar milliyətçə alman yəhudisi olan rəssam İ.Rotter, Azərbycan karikatura janrının banisi - Ə. Əzimzadə, Beno ləqəbi ilə çalışan R. Telenqator, V. Çəmənzəminli, Ə. İbrahimzadə, X. Musayev, İ. Axundov, Q. Xalıqov, Ə. Hacıyev, K. Dorş, H.Əliyev və başqaları jurnalla əməkdaşlıq etmişlər. [1]

Həqiqətən jurnalın ərsəyə gəlməsində əcnəbi karikaturaçı rəssamların rolunu xüsusi qeyd etmək lazımdır. İlk əcnəbi karikaturaçı rəssamlardan danışarkən şübhəsiz ki, C. Məmmədquluzadənin ən yaxın məsləkdaşı olan Oskar Şmerlinqdən söz açılmalıdır.

Oskar İvanoviç Şmerlinq 1 iyul 1863 – cü ildə Tiflis şəhərində anadan olmuşdur. (ancaq bəzi mənbələr onun 13 iyulda anadan olmasını yazır. O, özü haqqında isə 1925 – ci ildə C.Məmmədquluzadəyə yazdığı məktubunda bildirir ki, artıq 63 yaşına keçmişdir, bu isə onun 1863-cü ildə deyil, 1862-ci ildə anadan olduğunu bildirir.

Oskar Şmerlinqin babası - Teodor Zalçman, XIX əsrin əvvəllərində Almaniyadan Gürcüstana gəlmiş (o zaman artıq Almaniyadan bir neçə ailə Gürcütana köçmüşdü) Azuretidə (əvvəllər Elizabetalda) məskunlaşmış, sonra isə Tiflisə köçmüşdür və burada pivə istehsalı ilə məşğul olmuşdur. Tezliklə o, istehsalçı iş adamı kimi məşhurlaşmışdır.

Onun 4 övladı dünyaya gəlmişdir: Albert, Qenrietta, Matilda və Mariya. Sonralar Matilda Zalçman İvan Şmerlinqə ərə getmişdir. Onların isə anadan olan 5 uşağından biri Oskar İvanoviç Şmerlinq olmuşdur.

Oskar İvanoviç Şmerlinq gürcü rəngkarlığının bünövrəsini qoymuş bir rəssam kimi qiymətləndirilir. Oskar Şmerlinq ilk təhsilini Tiflis Realnı məktəbində almış və tələbə vaxtlarından şəxsi "Koxo" (Ağcaqanad) adlı satirik jurnalını dərc etmişdir. Sonralar isə rusdilli "Falanqa" jurnalı ilə əməkdaşlıq etmişdir. 1883 – cü ildə Gürcüstanda o zaman məşhur olan rəsm gimnaziyada rəsm fənnindən dərs demişdir. Realnı məktəbi bitirən Şmerlinq 1884 – cü ildə Peterburqa gəlir. Peterburq Rəssamlıq Akademiyasında rəssam Villevaldenin sinfində azad dinləyici kimi təhsil alır. Boqdan (Qotfrid) Pavloviç Villevalda (1818-1903) öz dövrünün məşhur rəssam-batalisti kimi tanılırdı. Onun Oskar Şmerlinqin yaradıcılığına böyük təsiri olmuşdur. Peterburq Rəssamlıq Akademiyasında təhsil alan istedadlı gənclər, onların aurası da Oskar Şmerlinqin həmçinin mənəvi inkişafına təsir etməyə bilmirdi. Oskar Şmerlinq Peterburq Rəssamlıq Akademiyasını gümüş medalla bitirmişdi.

1891 – ci ildə Münxenə rəssam batalist Frans Alekseyeviç Rubodan (1856-1928) təhsil almaq üçün Bavariyada yerləşən Kral Rəssamlıq Akademiyasına (hazırda bu təhsil ocağı Münxen Rəssamlıq Akademiyası adlanır) yola düşür.

Qeyd etməliyik ki, o dövrdə rəssamların çoxu özlərinə müxtəlif ləqəblər götürürdülər. Oskar Şmerlinqin haqqında informasiyaların Münxen Rəssamlıq Akademiyasının elektron arxivində aşkarlanmaması onun hansısa bir ləqəb altında çalışması və ya dağıdıcı 2-ci Dünya Müharibəsinin Akademiyanın da arxivlərindən yan keçməməsdir. Xüsusən Oskar Şmerlinqin milliyətçə yəhudi olması bu haqqda düşünməyə vadar edir. [1]

Bəzi mənbələrə görə Oskar Şmerlinq bir müddət Xankəndində yaşamış və teatr tamaşalarına eskizlər çəkmişdir. Gürcü tədqiqatçısı - Çoqoşvili Nino Levanovnanın qeyd etdiyi kimi Oskar Şmerlinq Azərbaycan Demokratik Respublikası dövründə (1918-1921 illərdə) Təhsil nazirliyinin incəsənət şöbəsinə rəhbərlik etmişdir. [10]

Azərbaycan Əlyazmalar Arxivində Oskar Şmerlinqin Cəlil Məmmədquluzadəyə 1921-1927 – ci illərdə yazdığı dörd məktubu oxumaq bizə müyəssər olmuşdur. Bu məktublardan aydın olur ki, o yaradıcılıq işləri ilə çox məşğuldur və Cəlil Məmmədquluzadəyə onu yenidən “Molla Nəsrəddin” - ə dəvət etdiyi üçün təşəkkür edir, lakin bununla belə məişət probemlərindən yazan rəssam Bakıda çalışacağı təqdirdə mənzilə ehtiyacı olacağını qeyd edir. Məktublardan birində bir müddət çalışdığı “Xatabala” jurnalının zəif olmasından məyusluğunu bildirir və taleyinə onu işsiz qoymadığı üçün təşəkkür edir.[1]

Oskar Şmerlinqin iki övladı olmuşdur: oğlu Edqar Şmerlinq – fotojurnalist, 30 – cu illərin represiya qurbanı olmuşdur, qızı isə Rene Şmerlinq (rəssam, sonralar sənətşünaslıq doktoru olmaqla yanaşı, gürcü incəsənətinin məşhur tədqiqatçılarından biri kimi məşhurlaşmışdır), Oskar Şmerlinq xüsusilə qızı ilə çox fəxr edir və məktublarında qızı haqqında fərəhlə yazırdı. Nəvəsi Alla Şmerlinq, ixtisasca mühəndisdir, Gürcüstanda yaşayır, öz şəxsi arxivində babası və bibisinin əsərlərini qoruyur və vaxtaşırı olaraq onları müxtəlif tədbirlərdə sərgiləndirir.

Filologiya elmləri doktoru, professor İsa Həbibəyli yazır: “Oskar Şmerlinq həqiqətən cənubi Qafqazda satirik qrafikanın, karikatura sənətinin, kitab qrafikasının əsasını qoyanlardan biridir. Onun cəlbedici və dərin məzmunlu karikaturalarının təsiri ilə Azərbaycanda, Orta Asiyada, Türkiyədə və İranda rəssamlıq sənətinin bu növü yaranıb geniş inkişaf etmişdir”. [6]

Azərbaycan dizaynına çoxsaylı töhvə verən digər rəssam İosif Rotter öz növbəsində məşhur ştrixləmə üslubu ilə “Molla Nəsrəddin” jurnalını zənginləşdirmişdir. Onun ştrix üslubundan sonralar digər Azərbaycan rəssamları da ilhamlanmışıdır. Ümumiyyətlə İosif Rotterin dəsti-xəttində əsl Münxen məktəbi hiss olunur. Onun mükəmməl ali təhsil alması, savadlı rəssam olması əsərlərindən bəlli olur.




Milliyyətcə alman olan Rotter İosif də Münhendə Rəssamlıq Akademiyasında

təhsil almış və bir müddət Tiflisdə yaşamışdı. 1906-1914-cü illərdə "Molla Nəsrəddin" jurnalının fəaliyyətində yaxından iştirak etmişdi. Rəssamın "Bir gün var idi, bir gün yox idi" (1907, N-13) karikaturası əsrlərlə ağrısını-acısını çəkdiyimiz erməni-müsəlman münaqişəsinə həsr edilib. Rəssam burada açıq-aydın münaqişənin qızışdırılmasında "Fitneyi-İblisi məlun" adlandırdığı Rusiyanın müstəmləkəçilik siyasətini ifşa edir.[14]

Çox araşdırmalardan sonra İosif Rotterin represiya qurbanı olması məlum olur. Onun son məkanı Sovet Rusiyasının Asino şəhərində yerləşir. Burada represiya qurbanları Tomskaya bölgəsi, Asinov rayonu, Voskresenskoye məzarlığında 1937-1950 –c i illərdə, düşərgə/həbsxana qəbiristanlığı - xüsusi köçkünlər qəbiristanlığında yerləşir [13].

Çox guman ki, İosif Rotter məhs alman hesab edildiyindən buraya müharibə illərində sovet rəhbərliyi tərəfindən sürgün edilmişdir, beləki bu bölgəyə yalnız litvalılar, estonlar və almanlar sürgün olunurdu. Hal-hazırda Asino şəhərində represiya qurbanlarına həsr olunmuş muzey fəaliyyət göstərir.

20-ci əsrin əvvələri üçün dizayn sözü bir qədər təzə olsa belə, bu günlər hər iki rəssamın fəaliyətini izləyərkən qədim və əzəmətli yəhudi xalqının nümayəndələri olan alman rəssamlarının Azərbaycan incəsənətinə və dizayn məktəbinə verdikləri töhvələrin misilsiz olduğunu anlamaq olur.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Abdullayev V.S. "Əməkdar İncəsənət Xadimi Nəcəfqulu İsmayılovun yaradıcılığı" – dissertasiya. Sənətşünaslıq üzrə fəlsəfə doktorluq dissertasiyası
2. Çoqoşvili N.L. – "Немецкая художественная традиция в Грузии с начала 19 – го века до 40-ч годов 20-го века". Автореферат диссертации на соискание ученой степени кандитата исскуствоведения. Тбилиси – 2006 г.
3. Ələsgərova İ. – "Этапы развития Азербайджанской карикатуры", журнал «Наследие», № 2/50, 2001 г.
4. Hacıyev N. – "Rəssam, həyat, gözəllik" – kitab – Bakı – 1974, səh. 142
5. Hacıyev N. – "Zamanın boyaları" kitabı, Bakı – 1979, səh. 105 – 110
6. Həbibəyli İ. – "Qobustan" jurnalı– 2001, № 2
7. Markelov N. – "Мужской характер", журнал, http//www.blago-mh.ru/issues/16-17/24_cards.php
8. Ahmedov M. "Посланник страны последних рыцарей" http://www.proji.ru/show_ann.php?id=266
9. Efendiyev V. "Partner Nord", (http://www.nord-inform.de/modules.php?name=News&file=article&sid=988)
10. «Большая Советская Энциклопедия», (http://bse.sci-lib.com/article077593.html)
11. «Республика Дагестан» журнал, (http://ys.mmc.ru/dagestan.html)
12. «Театральная энциклопедия», журнал (http://0/librarus.ru/booki/theatre/202/html)
13. Асино (город) - Мемориальный Музей (tomsk.ru)
14. "Molla Nəsrəddin"in birinci və daimi rəssamı | Kaspi.az

**Вугар Сардар оглы АБДУЛЛАЕВ**
*Западно-Каспийский университет,*
*доктор философии в области искусствоведения*
E-mail: raguv@mail.ru

## ПЕРВЫЕ ДИЗАЙНЕРЫ АЗЕРБАЙДЖАНА

**Резюме:** В статье рассматривается вклад двух немецких художников еврейского происхождения в азербайджанское искусство. В статье автор представляет этих двух художников как художников, заложивших основы дизайна в Азербайджане. Оба художника, работая в области книжной и журнальной иллюстрации, сценографии и многих других областях, заложили основы дизайнерского искусства в Азербайджане. К сожалению, как бы ни были успешны эти артисты в творчестве, их личная жизнь не удалась. Оскар Шмерлинг прожил непростую жизнь, а его сын стал в последствии жертвой репрессий. Иосиф Роттер был сослан в Сибирь во время войны и там умер.
**Ключевые слова:** Художники Оскар Шмерлинг и Йозеф Роттер

**Vugar Sardar ABDULLAYEV**
*Western Caspian University,*
*Doctor of Philosophy in Art History*
E-mail: raguv@mail.ru

## THE FIRST DESIGNERS OF AZERBAIJAN

**Summary:** The article examines the contribution of two German artists of Jewish origin to Azerbaijani art. In the article, the author presents these two artists as the artists who laid the foundations of design in Azerbaijan. Both artists, working in the field of book and magazine illustration, scenography and many other areas, laid the foundations of design art in Azerbaijan. Unfortunately, no matter how successful these artists were in their work, their personal lives failed. Oskar Schmerling lived a difficult life, and his son became the last victim of repression. Joseph Rotter was exiled to Siberia during the war and died there.
**Keywords:** Artists Oscar Schmerling and Joseph Rotter

**Daxil olub:** 28.02.2022